# Kənd təsərrüfatında praktiki təlim

Otlaqların idarəsi, düzəldilməsi və
baxılması

Qarşıdakı vəsaitin gürcü dilində nəşri Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi (USAİD) tərəfindən göstərilən kömək əsasında mümkün olmuşdur. Nəşrdə söylənilən fikirlər müəllifə məxsusdur və ABŞ Beynəlxalq İnkişaf Agentliyi və ya ABŞ Hökumətinin baxışlarını əks etdirmir.

# Otlaqların idarəsi, düzəldilməsi və baxılması



## Mündəricat

2. Otlaqların əhəmiyyəti

3. Otlaqların düzəldilməsi (salınması) və idarəsi

3. Hasar sistemləri

4. Suvarmaq

4. Bədbəxt hadisədən qorunmaq

5. Otlaq sistemləri

6. Otlaq sahələri növbə ilə əvəz etmək

8. Qısaotlu otlaq

9. Ekstensiv cəhətdən daimi otlaq

10. Otarma şəkilləri

12. Qismi otlaq

3. Biçilməmiş və biçilmiş otlaqlar

14. Yemləməni tənzimləmə

15. Ehtiyatda olan otlaq sahələri

**Otlaqların əhəmiyyəti**

İsveçrədə otlaqlar təsərrüfatı olduqca əhəmiyyətli bir sahədir. Fermaların əksəriyyətində inəklər və kobud yemlərdən istifadə edən başqa heyvanlar öz gündəlik yem tələbatlarının əhəmiyyətli hissəsini məhz otlaqlarda otlayaraq qarşılayırlar. Dağ-yamaclı və yaxud, çətin yanaşılan yerlərdə otlamaq bəzən yeganə variantdır.

Otlamaq qənaətcildir və mal-qara ilə yanaşı məhsula da müsbət təsir bağışlayır. Otlaqların bu məziyyətləri imkan dərəcəsində istifadə edilməlidir.



*Otlaqda heyvan öz cinsinə uyğun olaraq hərəkət edə bilir*

Otarmaq hevanları onların cinsinə uyğun olaraq saxlamaq və kobud yemdən istifadə etməyin ən ucuz yoludur.

**Müxtəlif əsas yemlərin istehsalı xərcləri**




*Qarğıdalı ot Qarğıdalı silosu Qarğıdalı və qarğıdalı tullantıları Ot silosu Quru ot*

*Yelə tutulmuş ot Tayalanmış ot Yem çuğunduru Qurudulmuş ot*

*Otlaq qənaət cəhətdən ən əlverişli yemdir. Quru otsa, misal üçün, iki qat bahadır.*

**Otlaqlar düzəltmək (salmaq) və onların idarəsi**

*Hasarları heyvanlara və mühitə uyğunlaşdırmalıyıq*

Otlaqlardan uğurla istifadə etmək üçün, sizə müvafiq avadanlıqlar və obyektlər gərək olacaqdır. Bu hasarlar sistemini, heyvanın elektrik müdafiəsini, su təchizatını, yollara çıxmağı əngəl vasitələrini və yad şəxslər üçün xəbərdarlıq nişanlarını nəzədə tutur.

Bu avadanlıqların hamısını mütəmadi şəkildə yoxlanılmalı və düzgün işləmələrinə əmin olmalıyıq. Bahar otarmasına başlamazdan əvvəl bütün dayaqlar, məftil, əngəllər, materyal və xəbərdarlıq nişanları ideal vəziyyətdə olmalıdır.

**Hasar sistemləri**

Situasiyadan irəli gələrək, müxtəlif hasar sistemləri mövcuddur. Daimi hasarlar yamaclarda, böyük və daimi otlaqlar üçün faydalıdır. Onlar maşınların tez-tez hərəkət etdikləri yollarda təhlükəsizliyi daha çox təmin edir, inək və ya at otlaqlarının hər il mürəkkəb sistemlərlə hasarlanmasına qənaət edirlər.



*Hasarın hündürlüyü və məftilin miqdarı heyvanın növlərinə uyğunlaşdırılmalıdır.*

Mobil hasarlar ərazini fərdi şəkildə bölmək üçün daha çevikdirlər. Hasarlar sürətlə açılır və öz yerinə qayıdır, misal üçün, səpin vaxtı və s. Mobil hasarlar dəmir, plasmas və şüşəlifli materyaldan ibarətdir. Sabit ağac dirəkləri yalnız künclərdə istifadə edilir.

Elektrikli hasar qurğuları (İribuynuz heyvanları qoruyan) istehsalçının əməliyyat təlimatına müvafiq olaraq istifadə edilməlidir ki, onlar insanlara xəsarət yetirməsin və od əleyhinə qaydalara təhlükə yaratmasınlar. Yaşayış yerlərdə elektrik hasarlar quraşdırılıbsa, bunun haqqında ordan keçənlərə müvafiq xəbərdaredici nişanlarla məlumat verilməlidir.





## Suvarmaq

Heyvanlara lazımınca su vermək olduqca əhəmiyyətlidir. Bu xüsusilə uzunmüddət otlaqlarda olarkən və yayda mühümdür. Su içmək üçün uzun yol qət etmək heyvanların enerjisini azaldır. Bundan irəli gələrək, hər bir otlaqda kifayət qədər su olmalıdır. Su hovuzunun otlaq zonasının mərkəzində yerləşməsi tamamilə idealdır. Bir neçə inək böyük ölçülü çəndə və ya çəlləkdə eyni anda su içə bilər.

Su çənləri ideal halda otlaqların ortasında quraşdırılır. Bununla heyvanlar hər tərəfdən suya yetişə bilər və həddindən artıq yeriməkdən irəli gələn zərər azalacaqdır.

## Bədbəxt hadisədən qorunmaq

Heyvanlar yollarda aşağı-yuxarı hərəkət edirlərsə, bunun haqqında həmin yoldan istifadə edənləri göztutan xəbərdarlıq nişanları ilə məlumatlandırmalısınız.

Piyada cığırları otlaqlardan keçirsə yürüyüşçüləri otlaqların olması ilə bağlı müvafiq nişanlarla xəbərdar etməlisiniz. Otlaqda balalı inəklər və ya öküzlər varsa, bu da müvafiq xəbərdaredici nişanlarla bildirilməlidir.

## Giriş cığırı

Hər bir otlağın giriş cığırı olmalıdır. Bunun üçün artıq mövcud olan cığırlar şəbəkəsindən istifadə etməliyik. Lazım gəldikdə, əlavə olaraq, üç-dörd metr enlikdə, ideal şəkildə salınmış cığırlar yaradılmalıdır.

# 1 Otlaq sistemləri

İki növ otlaq sistemi mövcuddur

- Otlaq sahələrini növbə ilə əvəz etmə sistemi
- Daimi otlaq

**Otlaq sistemləri**




Göstərilən rəqəmlər təxmin edilən nişanlardır

| Heyvannın cinsi | Ekstensiv otlaq sahəsini əvəz etmək | İntensiv otlaq sahəsini əvəz etmək | Qısa qazonlu otlaq |
|---|---|---|---|
| Sağmal inək | | × | × |
| Buzovlu inək | × | × | (×) |
| Sağılmayan inək | × | | |
| Döllük inək | × | (×) | |
| Ətlik cins | × | × | |
| At | × | × | |
| Sağmal qoyun | | × | |
| Ətlik qoyun | × | | |
| Keçi | × | × | |
| Hirsche | × | | |

× Yararlıdır, (×) Qismən yararlıdır

- Heyvanların tələbatları
- Bitkilərin pipuliasiyasının xüsusi keyfiyyətləri
- Yerli şəraitlər
- Otlaq sahənin şəkli.

Otlaqlardan istifadə etmək sənəti yemin miqdarının və keyfiyyətinin heyvanın yemə olan tələbatına uyğun olmasındadır.

### Otlaq sahələrini növbə ilə əvəzetmə sistemi

Otlaq sahələrini növbə ilə əvəz etmə həm ekstensiv, həm də intensiv şəkildə idarə edilə bilər. Ekstensiv otlamaqla, heyvanlar otlaq sahəsində birdən iki həftəyə kimi qalırlar, intensiv otlamaqla isə yalnız bir neçə gün.






İntensiv otlaqlarda hər gün otlaqların kiçik bir sahəsi qapanır (porsiya olaraq). Heyvanlar hasarlanmış sahəni bütün gün ərzində otlayırlar.

### İntensiv növbə ilə əvəz edilən otlaq sahələri

İntensiv növbə ilə əvəz edilən otlaq sahələrində otarmaq yüksək süd hasil edən inəklərdə daha effektlidir. İnəkləri hər hektarbaşı quru maddənin 15-20 desiton və yaxud, böyümənin hündürlüyü 15-dən 20 santimetrədək olduğunda çıxarırlar. İntensiv otarma 20-dən 30 günədək fasilə ilə, birdən-üç gün arası aparılır.

**İntensiv növbə ilə əvəz etmənin qüsuru və üstünlüyü**

| Üstünlüyü | Qüsuru |
|---|---|
| • Yemin çatdırılması və keyfiyyətin optimal nəzarəti<br>• Otlaqların aşağı itkiləri<br>• Qaramuğun bitdiyi yerlər də mümkündür | • Nəmli havalarda ayaq izi ilə verilən ziyan,<br>• Sahələr nisbətən balacadır və orda maşınlar gedişi çətindir |

Yemin böyüməsinin hər bir santimetri üzərində, məhsuldarlıq təxminən 1 DT/ha-ilə artır.
15-dən 20 sm-ə qədər böyümə hündürlüyündə yemin tədarükü 15-dən 20 dt DM/ha qədərdir.

### İntensiv növbə ilə ərazi dəyişmə hissələri (porsional otlaqlar)

Üç gündən çox bir müddətdə otararkən porsional otarmaq daha əlverişlidir. O, yarımgünlük və ya gündəlik hissələrə bölünür. Gündəlik şəkildə çəpər yeni yemə tərəf çəkilir və yeni hissə/porsiya köhnəsindən çəpərlə ayrılır. Bu o deməkdir ki, heyvanlar həddindən artıq yemə çata bilmir, ifrazat və sidiyi də daha bərabərcə yayırlar. Mütəmadi dəyişmələrə görə yemin miqdarı və keyfiyyəti əhəmiyyətsiz dərəcədə dəyişir.

Yuxarıda qeyd olunan sistemin mənfi cəhəti mütəmadi şəkildə yeni-yeni yerləri çəpərləmək və su çəlləklərinin yerini dəyişməkdir.





İntensiv rotasiya otlaqlarda otun hündürlüyü otlamağa başlamazdan əvvəl 15-20 sm olmalıdır.

**Otlaq sahəsinin növbə ilə əvəzetməyin üç qaydası**

Effektli alınması üçün müxtəlif amilləri nəzərə almalıyıq

- Qısamüddətli otarma dövrü: təzə çıxmış otu yeməməsi üçün heyvan otlaqda çox qalmamalıdır.
- Adekvat dincə qoymaq dövrü: otlaq otlarına da fasilə lazımdır. Həmin dövr çox qısa olsa, ot lazımınca inkişaf edə bilməyəcək.
- İnəklərin adət etməsini nəzərə alın: inəklər adət etməyə alışan heyvanlardır. Otarma vaxtlarını və otlaq sistemini, yemin sabit proporsiyalarını daima dəyişsək, bu inəklərin məhsuldarlıqlarına da mənfi təsir bağışlayacaqdır.

**Otarma müddəti**

Otarma müddəti günlərin miqdarını əhatə edir. Bu vaxt heyvanlar otlaqlarda olurlar.

- Rotasiyalı otlaqlarda saxlamağın müddəti qısa olmalıdır, əks təqdirdə heyvanlar yenilənən yemdən həddindən çox istifadə etməyə başlayacaqlar və köhnəsini ayaqları ilə tapdalayacaqlar.
- Otarma müddəti otun uzunluğunun təxminən altı-yeddi santimetr hündürlüyündə olana qədər davam etməlidir.

**Dincə qoymaq müddəti**

Dincə qoymaq müddəti eyni otlaqda iki ardıcıl aktivliyin vaxtını əhatə edir.

Növbəti otarma otun arzu edilən hündürlüyə çatmasından sonra baş tutmalıdır. İntensiv rotasiyalı otarma müddətində fasilə baharda 10-dan 20 günədəkdir, yayda isə 20-dən 30 günədək.

- Dincə qoymaq müddəti olduqca qısadır, yaxşı yem ot ehtiyatı tükənəcəkdir.
- Yem çox köhnəldikdə, yemi itkisi baş verir. Bununla isə yaxşı otlaqlardakı otun miqdarı azalır
- Yay dövründə otlaqların itməməsi üçün otarmağa nisbətən əvvəlcədən başlamaq lazımdır.

Növbə ilə otarma dövründə, otarma müddəti və dincə qoymaq müddəti ciddi şəkildə qriunmalıdır.

**Adətlərə daima riayət edin**

• Otlaq sistemi, yemləmənin sabit proporsiyası, çoxalma vaxtı və s. həddindən çox dəyişmlidir.

• Ekstremal havada otlamağa xitam verilməlidir. Zədələnmiş otun necə bir sürətlə bərpa edilməsi həqiqətədən də qəribədir. Dayanıqlı olmayan yamaclarda otarmaq ehtiyat tələb edir.

• Gündüz otarmasından gecə otarmasına keçsəniz, gecə otarmasını uzada bilərsiniz.

**Daimi otlaqlar**

Otararkən heyvanlar bütün otlaq mövsümü ərzində eyni otlaq sahəsində qalırlar. Daimi otlaqlar intensiv və ekstensiv kimi istifadə edilə bilər.



*Qıza otlu otlaqda heyvanların otlamasının müddəti boyu orda qalırlar.otun hündürlüyü 6-8 santimetrdir.*

**Qısaotlu otlaq**

Daimi otlaqların intensiv şəkli qısaotulu otlaqdır. Bu növ otlaqlarda otlatmaq bir və bir neçə sahədə elə aparılır ki, ot müəyyən hündürlüyünü heç vaxt keçmir. İstənilən dincə qoymaq dövrü maksimum bir həftədir. Bunun sayəsində qazon qısa qalır.

Baharda otun hündürlüyü ortalama altı-yeddi santimetr olmalıdır, yayda isə yeddi və səkkiz santimetr olmalıdır. Bu o deməkdir ki, otlaqların itkiləri aşağıdır və bitkilərin böyümələri və rezervasiyaları üçün kifayət sahələri var.

Qısa otlu otlaq mütəmadi yay yağıntılı, qaramuqlu yerlərdəki təsərrüfatlar üçün uyğundur. Otlatma yerləri eynicür olmalıdır.

**Qısa otlu otlaqlarda otlatmanın üç qaydası**

• Ot örtüyü altıdan səkkiz santimetr hündürlüyündə (baharda altı-yeddi santimetr, yayda yeddindən səkkiz santimetr): əgər ot çox uzundursa, yem itkisi çox olacaqdır. Çox qısadırsa, südün sağılması azalacaq.

• Otlaq bitkilərinin böyüməsinə adaptə etmək: baharda otun güclü şəkildə böyüməsi üçün otlaqların ümumi sahəsinin az qalsın yarısı lazımdır. Ərazinin genişlənməsi mayın sonunda və avqustun əvvəlində lazımdır.

• Azotun mütəmadi çatdırılmasını təmin etmək: ortalama 20-dən 30 kq n/ha-ya qədər hər beş həftədə bir.

**Ekstensiv daimi otlaq**

Çoxdan mövcud olan böyük sahəsi olan otlaqda nisbətən kiçik saylı heyvanların otarılmasına otarılmanın ekstensiv şəkli deyilir. Burda heyvanlar bütün yay boyu eyni sahədə qalırlar. Bu otlaqları nadir hallarda kübrələşdirilər və maksimum 2-3 hissəyə ayırırlar.

Daimi otlağı yaşı alternativi ekstensiv otlaq sahəsinin növbə ilə əvəz olunması otarılmadır, burda itkilər o qədər də böyük deyildir.

**Qısa otlu otlaqların üstünlüyü və nöqsanı**

| Üstünlüyü | Nöqsanı |
|---|---|
| • Böyük məkanda az iş (çəpər, biçənək, kübrə).<br>• İnfrastruktur üçün az xərclər (çəpər, amteryal, su çəpərləri, cığırlar).<br>• Sakit heyvanlar (çoxlu məkan).<br>• Böyüməyin bütün müddəti üçün yemin mütəmadi çatdırılması.<br>• Yemin yüksək keyfiyyəti: tarazlaşdırılmış süd hasilatı.<br>• Sıx ot.<br>• Yaş havada təsir nəticəsində kiçik korlanmalar | • Yayda quru yerlərdə, qaramuğun məhdud potensialına görə, habelə təpələrdə və dalğalı relyefdə.<br>• Böyük naxırların otarılmasının uzun müddəti.<br>• Təbii çöllərdə həddini aşmış istifadəsi təhlükəsi<br>• Quraqlıda məhsuldarlığın azlığı.<br>• Gənc yemdəki həddini aşmış zülal sidik cövhərinin yüksək səviyyəsinə səbəb olur.<br>• Yemi çatdırmanın heyvanların ehtiyaclarına uyğunlaşdırmaq çətindir.<br>• Kübrə vermək və alaq otlarına kimyəvi nəzarət çətindir. |

# Otarma şəkilləri

## Tam və qismi otarma

### Tam otarma

Tam otarma vaxtı, heyvanlar yemi əsasən otlaqlardan alırlar.  Fermada onlar kobud yemin maksimum 20 faizini qəbul edirlər.  Baharda, gün ərzində, heyvanlar bir qayda olaraq otlaqlardadır. Yayın isti aylarında gecələrdə də.  Tam otarma şəkli fermerlər üçün daha uyğundur, fermanın yanında çoxlu və yaxşı otlaqlı yerlərdə.

**Tam otlaq**
Heyvanlar əsasən yemi otlaqlarda qəbul edirlər və fermada, əlavə olaraq, yalnız az miqdarda kobud yem qəbul edirlər.

**Üstünlüyü və nöqsanı**

| **Üstünlük** | **Nöqsan** |
|---|---|
| • Maşınların aşağı qiyməti<br>• Təbii yem və yemin kiçik itkiləri<br>• İş yükünü yüngülləşmə<br>• Əsas yemin aşağı qiymətləri | • Otlaqlar fermaya yaxın olmalıdır<br>• Otlaqları  daimi çatdırmaq üçün yüksək tələbatların idarəsi.<br>• Yüksək illik süd məhsulu verən inəklər üçün uyğun deyildir. |

*Süd istehsal etmək üçün tam  otlaqlar əlverişli sistemdir. .*

### Qismi otarılma

Qismi otarılmada heyvanlar otlaqda əsas tələbatların maksimum 80 faizini əhatə etməlidir, yerdə qalanını isə fermadan alırlar. Otlaqda gündəlik yem vaxtı əhəmiyyətli dərəcədə fərqlənir. Sabit yemin yüksək proporsiyaları olan təsərrüfatlarda, otlaqlar əsasən heyvanların hərəkət etməsi üçün istifadə edilir; bundan əlavə, buğaya gəlməyi otlaqda müşahidə etmək daha asanddır nəinki fermada.
Qismi otlaqlar vacibdir.

Qismi otlaq – heyvanlar otlaqlarda əsasən kobud yem hissəsini və əlavə yemi fermadan alırlar

**Üstünlük və naqislik**

| Üstünlük | Naqislik |
|---|---|
| • Otlaq tarazlaşmamış yem tədarükünün kompensasiyası fermada mümkündür<br>• Otarılma hava şəraitlərinə görə dayandırılırsa, yemdə dəyişikliklər bir o qədər də ifadə edilmir.<br>• Yüksək məhsuldarlı inəklər üçün yem | • Daha çox iş və hər iki növ yemdən istifadə edilməsi üçün daha çox xərc (otlaqlar və sabit yem).<br>• Daha çox itki<br>• Ferma yemi stabil olaraq yaxşıdırsa, heyvanlar otlaqda iştahlı olmurlar |

İnəkləri otlağa ac aparmalıyıq. Əlavə yemi yalnız otladıqdan sonra, fermada verməliyik.

# Biçilməmiş və biçilmiş otlaqlar

## Biçilməmiş otlaq

Biçilməmiş otlaqlarda yalnız otarılır və onlar biçilmirlər. Onların nəbatat tərkibi bir çox hallarda qarışıq olur, çünki biçilmədiyi və/ya həddindən çox istismarına görə aralarında otlaqlar üçün əlamətdar olan alaq otları böyüyür.

Onun üçün təmiz, biçilməmiş otlaqlardan istifadə etmək yalnız mexanizmləşdirilməsi çətin olan yamaclarda istifadə edilməlidir. Təmiz otlaqlardan istifadə etmək fermaya yaxında lazımlı otlaqları olmayan təsərrüfatda da faydalı ola bilər.

## Biçilmiş otlaq

Biçilmiş otlaqları biçir və otarmaq üçün istifadə edirlər. Otlaqların proporsiyasından irəli gələrək birdən iki konservasiya sahəli biçin otlaqlar yaradılır və onlardan növbə ilə gah biçmək, gah da otarmaq üçün istifadə edirlər.

**Üstünlüyü və qüsuru**

| **Üstünlüyü** | **Qüsuru** |
|---|---|
| • Tarazlaşdırılmış otarmaq<br>• daha az alaq otu.<br>• Otlaqdakı səhvlərin qidaya daha az təsiri var<br>Həddindən artıq və ya az istifadə nişanları azdır.<br>• Kübrədən problemsiz istifadə etmək olar | • Otlaqlar üçün geniş sahə gərəkdir<br>• Kiçik sahələrdə konservasiya üçün daha çox xərc tələb edilir. |

Biçin otlağı otarma və biçinin müsbət nəticələrini birləşdirir. Beləliklə, bu sistemdən istifadə etmək məsləhətlidir.

### Otlaqları bölüşdürərəkən otlaq sahəsinin tələbləri

Lazım olan mühit qidanın əlçatımlı miqdarından asılıdır. Bir qayda olaraq, bolluca bitkisi olan kolluqlarda, bir inək gündə təxminən $100m^2$ miqdarında yem yeyir. Yaxşı yerlərdə $80m^{2.}$ Kifayətdir.

### Otlaqlar üçün otlaq sahəsini növbə ilə əvəz etmək tələbi

Otlaq sahəsini növbə ilə əvəz etməyi planlaşdırarkən dörd dəyişkəni nəzərə almalıyıq: otarmaq vaxtı, dincə qoymaq vaxtı, sahənin ölçüsü və sahənin miqdarı. Otarmağın vaxtı otlaqlar sistemindən asılıdır; Dincə qoymaq müddəti mövsüm və bitkinin böyümə şəraitlərinə uyğunlaşdırılmalıdır.

**Dincə qoymağı bitkilərin böyüməsinə uyğunlaşdırmalıyıq.**




### Qısa otlu otlaqlarda sahə tələbi

Qısaotlu otlaqlar intensiv otarma şəklidir. İntensiv dövr edən otlaqlara nisbətən, onların quru maddələrinin məhsuldarlığı ildə yalnız on faizlə azdır.

**Erkən baharda otarmaq**

Baharda otlaqlar ingilis qaramuğu ilə olduqca zəngindir. Həmin qaramuq eyni zamanda arzuedilməz alaq otunu məhv edir, beləki, otarmağa erkən baharda başlamalıyıq.

Əgər yaş havaya və yaxud başqa bir səbəbdən otarmaq gecikirsə, otlaqlar o başdanca kiçik sahələrə ayrılmalı ki, sonradan çıxan ot yeyilsin. Ot xüsusilə böyüməsinin ən güclü fazasında yaxşı qırpılmalıdır. Otarmağa gec başlasaq, bahardakı güclü böyümə yem dağlarının toplanmasına gətirib çıxaracaq. İlk ot köhnəlir, ikincisi isə yeni çıxdığı üçün hələ də otarılmağa hazır deyildir. Beləliklə, yem itkiləri artır, süd emalı azalır, inəklər isə yem problemi qarşısında qalırlar.

**Otlaqlar yağışlı havada**

Hava pis olduqda belə bir sual yaranır, heyvanlar böyük fermada saxlanılmalıdırlar ya yox? Havanın nəmli olduğu üçün heyvanlar sürüşə bilərlər. Lakin, bir neçə gün ərzində fermadan çıxmayan inəklər, güclü örüşə çıxmaq istəyi üçün ciddi təhlükə altında ola bilərlər.

Pis hava şəraitində bu prosedurlar effektli olacaqdır:

• Mümkünsə heyvanları otlağın möhkəm hissəsinə aparın.
• Heyvanları hər gün otlaqlara çıxarmağa davam edin, lakin gündəlik otarma saatları ikidən-dörd saatadək azalmalıdır.

**Yemi çatdırmağın tarazlaşdırılması**

Yemin çatdırılması belə tarazlaşdırıla bilər:

- Azotla kübrələnə bilər
- Müxtəlif yerlərin, (günəşli tərəfin, kölgəlinin və s) müxtəlif böyüməsini nəzərə alaraq.
- Otarmağı erkən başladaraq və ya imkan varsa əvvəlcədən otarmaqla
- Tam otlaqlara vaxtlı keçmək və ya qismi otlaqlarda – otlaqların proporsiyasını artırmaqla
- Yemin konservasiyası ilə - otun çox hündür olduğunu görən kimi

**Sağmal və süddən qurumuş inələrin otarılması**

Porsiya otlaqları sağmal inəklərə yemin hələ onların yeməsinə, qalanının isə süddən kəsilmiş inəklərə qalmasına imkan verir. Bu sistem inəkləri yalnız bir-iki gün otardığımızda və sonra yeni otlağa keçirdikdə uğurludur. Təcrübədə, mənzərə bir çox halda fərqli olur: sahədə yalnız iki gün ərzində otarmaq əvəzinə, heyvan torpaq sahəsində yalnız bircə həftəyədək qalır. Bu isə yeni otun həddindən artıq istifadəsi, lazımınca dincəltməmək və nəhayət, yemin böyüməsinin azalması deməkdir.

**Ehtiyat  otlaq sahələri**

Biçənək otlaqlarının istifadəsi əlavə otlaqlar tələb edir. Onlar pis hava şəraitində olduqca faydalıdır. Bu sahələr quru olduqda, otlaqların sahəsi genişlədilməlidir, yaş olduqda isə bərk və möhkəm hissələrdən istifadə edilməlidir.

**Otun hündürlüyünün nəzarəti**

Yemin çatdırılmasının optimal şəkildə təşkilatlandırmaq üçün, otun hündürlüyünə müntəzəm şəkildə nəzarət etmək lazımdır. Baxmaq, yumruqla yoxlamaq və ya heyvanların davranışı bunun haqqında əhəmiyyətli məlumat verir.
Lakin, vizual baxış bir çox hallarda kifayət deyildir, xüsusilə kiçik otlu otlaqlarda. Otun hündürlüyünü metrləliklə də yoxlamaq olar.

**Heyvanların sağlamlığına göz qoyun**

Otarıldıqda heyvanlara xüsusi diqqət vermək lazımdır ki, sağlamlığı ilə bağlı problemləri başlanğıc mərhələdəcə müəyyənləşdirilsin.  Bir neçə qabaqlayıcı xarakterli tədbirlə, xəstəliyin riski azala bilər.
Körpə, zülallarla zəngin bahar və payız otu bir çox hallarda qazlar və köpmələr əmələ gətirir. Yonca ilə zəngin otlaqlar və ya təktərəfli və həddindən çox azotla kübrələnmiş otlar bu problemi kəskinləşdirir. Bu cür yem bir çox hallarda qandakı sidik cövhərinin dərəcəsini artırır.  Bu orqanizmə, xüsusilə də bağıra mənfi təsir göstərir.
Körpə otdan təktərəfli istifadə etmək əzələlərin ağrıdan qıvrılmasına gətirib çıxarır. Bu xəstəlikdən bir neçə həftəliyinə keçici yemlə, maqniuma uyğunlaşdırılmış, azot və kalyumla ölçülü şəkildə otarmaqla yayınmaq olar.
Daimi və növbə ilə otlaqlarda heyvanlar bir çox hallarda qursaq və bağırsaq, ağ ciyər və bağır qurdları ilə xəstələnirlər.  Qabaqlayıcı xarakterli ölçülər otlaqların mütəmadi rotasiyasından, nəmişli yerlərdən çəkinməkdən və suvarma yerlərinin təmizliyini qorumaqdan ibarətdir.


Metrəliklə ölçmək


Oval, diskəbənzər ölçü


Düzbucaq ölçü (0,69 vahidlik  1 sm. Hündürlüyə uyğundur)

**Uzunsov, düzbucaq şəkilli sahələr**

İmkan olsa, otlaq sahələrinə uzun düzbucaq şəkli verməliyik. Bu sahələrin porsiyalara bölünməsini asandlaşdırır. Bu şəkil mexanikləşmiş məhsula kömək edir.

Ulduz şəkilli ya şəkilsiz sahələrdən yayınmalıyıq. Hər sahəyə ayrıca cığırla gedilməlidir.

**Müxtəlif tipli sahələr**




*Sahələrin topoqrafiyaya uyğunlaşdırılması lazımdır*

**Yamaclardakı otlaqlar**

Otlaq sahələrinin növbə ilə əvəz edilməsi həm çətin, həm də baha başa gəlirsə, otlaqlar daimi istifadə edilə bilər Eyni zamanda, dik yamaclarda eksklüziv otarılma pilləkən kimi cığırlar yaradır, bu isə torpaq sürüşməsinə səbəb olur.





**Yamac otlaqlarına qeydinə qalmaq üçün məsləhətlər**

- Möhkəm cığırlarla yaxşı əlçatımlıq
- Böyük otlaq sahələrindən yayınmaq
- Düzbucaq şəkilli və böyük ölçülü otlaq sahələri
- Yaxşıca bölüşdürülmüş, bolluca su təcizatı
- Otlaqlara ayrı ayrı giriş və çıxış
- Dik yamaclarda yüngül heyvanlar: balaca inək, qoyun, keçi
- Yağışlı havada alternativ otlaqların olması